**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№361/5** **14 dekabr 2023-cü il**

# Azərbaycan Respublikası Auditorlar Palatasının risk əsaslı yanaşma əsasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə 3 illik sahəvi nəzarət Strategiyası barədə

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın 8.2.4-cü "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə risk əsaslı nəzarətin həyata keçirilməsi üçün tənzimləyici və institusional bazanın formalaşdırılması" maddəsinin 3-cü "Hər bir nəzarət orqanı tərəfindən risk əsaslı yanaşma rəhbər tutularaq cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə 3 illik sahəvi nəzarət strategiyasının hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən təqdim edilmiş materialın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Azərbaycan Respublikası Auditorlar Palatasının risk əsaslı yanaşma əsasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə 3 illik sahəvi nəzarət Strategiyası" təsdiq edilsin (əlavə olunur).
2. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov), Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov), Kadr hazırlığı idarəsinə (E.Behbudova), Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) və Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşıprılsın ki, "Azərbaycan Respublikası Auditorlar Palatasının risk əsaslı yanaşma əsasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi üzrə 3 illik sahəvi nəzarət Strategiyası"ndan irəli gələn öhdəliklərin vaxtında və yüksək səviyyədə yerinə yetirilməsini təmin etsinlər.
3. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, "Strategiya"nın müvafiq qurumlara təqdim edilməsi təmin edilsin.
4. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və daxili auditor Ş.Əsgərovaya tapşırılsın ki, "Strategiya"da nəzərdə tutulan tədbirlərin Auditorlar Palatasının 2024-cü il üzrə iş planına daxil olunması təmin edilsin.
5. Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, "Strategiya"nın ƏL/TMM üzrə Topluya daxil edilməsi təmin edilsin.
6. Bu qərarın və təsdiq edilmiş "Strategiya"nın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**